Münafiqin məsəli, iki qoyun sürüsü arasında tərəddüdlə ora bura gedən çaşqın qoyun kimidir, gah bir sürüyə gedər, gah da digərinə

İbn Ömərdən (Allah onların ikisindən də razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilmişdir: "Münafiqin məsəli, iki qoyun sürüsü arasında tərəddüdlə ora bura gedən çaşqın qoyun kimidir, gah bir sürüyə gedər, gah da digərinə.

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) münafiqin halını bəyan edərək bildirir ki, o iki qoyun sürüsü arasında tərəddüd edən qoyun kimidir, bilmir hansına qoşulsun. Bəzən bir sürüyə gedər, bəzən də digərinə. Və onlar imanla küfr arasında tərəddüddə qalıblar, zahirən və daxilən nə möminlərlə, nə də kafirlərlə birlikdədirlər. Lakin, zahirən möminlərlə olsalar da, daxilən şəkk və tərəddüd içərsindədirlər, gah möminlərə, gah da kafirlərə meyil edərlər.

http://www.sunnah.global/hadeeth/az/show/65019